İPƏK YOLU, No.4, 2019, səh.147-152

# XVIII ƏSRİN SONU – XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏKİDƏ İPƏK PARÇA TOXUCULUĞU

**Emiliya Əliyeva**

AMEA-nın Tarix İnstitutu, Bakı, Azərbaycan

**Xülasə**. Məqalədə XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Şəki xanlığında xam ipək istehsalı məsələləri araşdırılmışdır. Bu sahənin inkişafı, ticarət əlaqələri, Şəki xanlığının ictimai-iqtisadi həyatında ipək istehsalının rolu təhlil edilmişdir.

**Açar sözlər**: ipək parça, toxuculuq, istehsal, zərbaft, cecim.

## SILK WEAVING IN SHEKI IN THE LATE XVIII – EARLY XIX CENTURY

**Emiliya Aliyeva**
*Institute of History ANAS, Baku, Azerbaijan*

**Abstract.** The paper examines the problems of raw silk production in the Sheki Khanate in the late 18th - early 19th centuries. The development of this direction, trade relations, the role of sericulture in the socio-economic life of the Sheki Khanate are analyzed.
**Keywords:** silk fabric, weaving, production, zarbaft, jajim.

## ШЕЛКОВОЕ ТКАЧЕСТВО В ШЕКИ В КОНЦЕ XVIII – НАЧАЛЕ XIX ВЕКА

**Эмилия Алиева**
*Институт Истории НАНА, Баку, Азербайджан*

**Резюме.** В статье исследуются проблемы производства сырого шелка в Шекинском ханстве в конце XVIII начале XIX вв. Проанализировано развитие этого направления, торговые отношения, роль шелководства в социально-экономической жизни Шекинского ханства.
**Ключевые слова:** шелковая ткань, ткачество, производство, зарбафт, джеджим.

Hələ erkən orta əsrlər dövründən başlayaraq Azərbaycan özünün yüksək keyfiyyətli xam ipəyi və ipək parçaları ilə şöhrət qazanmışdı. Artıq X əsrdə Arran (sonralar Qarabağ) və Şirvan bütün Yaxın və Orta Şərqdə mühüm ipəkçilik mərkəzlərinə çevrilmişdilər. Xam ipək və ipək parçalar istehsalı Bərdədə, Beyləqanda, Təbrizdə, Şabranda geniş miqyas almışdı. XIII əsrdən başlayaraq Şirvan Azərbaycanda ipəkçiliyin ən başlıca mərkəzindən birinə çevrildi və bu üstünlüyü sonrakı əsrlərdə də davam etdirdi [11, s.141]. Lakin bəhs edilən əsrlərə aid mənbələrdə Şəkidə xam ipək və ipək parçalar istehsalına aid, demək olar ki, heç bir məlumata rast gəlinmir.

XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərini əhatə edən xanlıqlar dövründə də Şamaxı bu şöhrətini saxlamışdı. XIX əsrin əvvəllərində bu xanlığın yalnız 8 kəndində 295 tut bağı var idi [2, v.34-56]. Bununla belə mənbələrin təhlili göstərir ki, xanlıqlar dövründə, xüsusilə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanda ipəkçiliyin coğrafiyasında növbəti dəyişiklik baş vermişdi. Belə ki, XV-XVII əsrlərdə və hətta, XVIII əsrin birinci yarısında xam ipək istehsalının əsas mərkəzi hesab edilən Şamaxı xanlıqlar dövründə artıq bu üstünlüyünü itirmişdi. Mövcud materialların təhlili əsasında belə qənaətə gəlmək olur ki, öyrənilən dövrdə ipək istehsalında Şəki xanlığı daha üstün mövqe tuturdu. İpək istehsalının

coğrafiyasında baş vermiş bu dəyişiklik bölgədə cərəyan edən hərbi-siyasi hadisələrlə sıx bağlı idi.

Azərbaycanın şimal-şərq xanlıqlarının mərkəzində yerləşən və böyük maddi ehtiyatlara malik olan Şamaxı xanlığı özünün mövcud olduğu müddət ərzində dəfələrlə qonşu xanlıqların və yadelli işğalçıların hücumlarına məruz qalmışdı. Əgər buraya Şamaxının XVIII əsrin birinci yarısında Hacı Davud və Surxay xanın üsyançı dəstələri tərəfindən qarət edilməsini və Nadir şah tərəfindən amansız şəkildə dağıdılaraq yeni yerə köçürülməsini də əlavə etsək, onda burada xam ipək istehsalında müşahidə edilən geriləmənin səbəbləri aydın olar.

Şamaxı xanlığı ilə müqayisədə Şəki xanlığı dağıdıcı hücumlara daha az məruz qalmışdı. Xanlığın həyatında hökm sürən nisbi sabitlik iqtisadi həyatın digər sahələri kimi, xam ipək istehsalına da müsbət təsir göstərirdi. S.Bronevski yazırdı ki, Şəki xanlığında "külli miqdarda istehsal edilən ipək öz keyfiyyətinə görə Şamaxı ipəyindən geri qalmır" [10, s.43]. Burada istehsal edilən xam ipək yerli toxucuların tələbatını ödəməklə yanaşı Azərbaycanın digər xanlıqlarına və xarici ölkələrə də ixrac edilirdi. Şəki xanlığında xam ipək istehsalının geniş miqyas almasını burada fəaliyyət göstərən çoxlu ipək karxanaları da sübut edir. Arxiv sənədləri əsasında apardığımız hesablamalara görə xanlığın yalnız dörd mahalında – Şəki, Alpout, Ağdaş və Padar mahallarında təxminən 464 ipək karxanası işləyirdi [1, v. 9-65]. XIX əsrin əvvəllərində Şəki xanlığında xam ipək istehsalının illik həcmi 16 min puda çatırdı [8].

Şəki xanlığında istehsal edilən xam ipəyin həcmi haqqında Rusiya gömrükxanalarının rəsmi məlumatları da müəyyən təsəvvür yaratmağa imkan verir. Doğrudur, bu məlumatlar Şəki xanlığı ilə yanaşı Şamaxı xanlığından da ixrac edilən xam ipəyi əhatə edir. Həştərxan və Qızlar gömrükxana idarələrinin rəsmi hesabatlarından əldə etdiyimiz məlumatlardan aydın olur ki, təkcə 1791-ci ildə Şəki və Şamaxı xanlıqlarından Rusiyaya 3314 pud xam ipək ixrac edilmişdi [15, v.259 ar.-260]. Şəki xanlığından Rusiyaya ixrac edilən xam ipəyin həcmi haqqında XIX əsrə aid mənbələrdə daha dəqiq məlumat verilir. "Qafqaz arxasındakı Rusiya mülklərinin icmalı"nda göstərilir ki, Şəki xanlığından Rusiyaya göndərilmək üçün xam ipəyin tədarükü hər ilin noyabr-dekabr aylarında aparılır. Xanlığın ləğvindən cəmisi bir neçə il sonra buradan Rusiyaya 6 min pud xam ipək göndərilmişdi [14, s.378].

Əlbəttə, bu deyilənlərdən heç də belə nəticə çıxarmaq olmaz ki, Şəki xanlığında xam ipək istehsalı üçün şərait həmişə əlverişli olmuşdur. Ölkədə bərqərar olmuş ümumi ictimai-siyasi vəziyyət bu sahənin də inkişafına ciddi təsir göstərirdi. Yuxarıda qeyd edildiyi kimi, müstəqillik əldə etmiş Azərbaycan xanlıqları bir-birilə fasiləsiz müharibələr aparırdılar. Bu isə iqtisadi həyatın digər sahələri kimi xam ipək istehsalının da tənəzzülə uğramasına gətirib çıxarırdı. Daxili ara müharibələrinin ipəkçiliyin inkişafına vurduğu ağır zərbə XVIII əsrin sonlarında Azərbaycanda olmuş A.Q. Serebrovun təsvirində çox aydın əks olunmuşdur. Serebrovun dediklərindən belə məlum olur ki, bir-birilə düşmənçilik edən tərəflər öz düşmən-

lərinin üzərinə daha çox ipək qurdunun yetişdiyi dövrdə hücum edir və bununla da onların bu faydalı işlə məşğul olmaqları üçün zəruri vaxtlarını əllərindən alırdılar [19, s.179].

Şəki xanlığında sənətkarlıq istehsalının, o cümlədən ipək parça toxuculuğunun əsas mərkəzi Şəki şəhəri idi. Qeyd etmək lazımdır ki, Azərbaycanın başqa şəhərləri ilə müqayisədə Şəki xanlıqlar dövründə feodal-ara müharibələri və xarici hücumlar nəticəsində elə ciddi dağıntılara məruz qalmamışdı. Hər halda mənbələrdə bunu təsdiq edən faktlara təsadüf etməmişik. Şəki istər birinci, istərsə də ikinci Rusiya-İran müharibələrinin də dağıdıcı təsirindən də bir növ kənarda qalmışdı. Nisbətən sabit hərbi-siyasi şərait şəhər əhalisinin sayının artmasına səbəb olmuşdu. XIX əsrin əvvəllərində burada əhalinin sayı 14051 nəfər təşkil edirdi [3, v.92]. Onu da göstərmək lazımdır ki, xanlıqlar dövründə Şimali Azərbaycan şəhərlərinin heç birində bu qədər əhali yaşamırdı.

Şəki Azərbaycanın şimal-qərb regionunun başlıca ticarət və sənətkarlıq mərkəzlərindən idi. Mənbələrdən birində göstərilir ki, "vilayətin əsas ticarət yeri karvanların axışıb gəldiyi Nuxa şəhəridir. Ləzgilər (dağıstanlılar – E.Ə.) və başqa şəhərlərdən olan tacirlər buradan mal alırlar" [14, s.384]. Ticarət dükanları və sənətkarlıq emalatxanaları, əsasən şəhərdə olan 8 dalan-bazarda cəmləşmişdi. Burada fəaliyyət göstərən "Təbriz", "Gəncə", "Şamaxı" və "Ləzgi" karvansaraları da ticarət dükanlarının cəmləşdiyi əsas mərkəzlər idi [20, s.10].

Şəki Azərbaycanın digər şəhərləri və xarici ölkələrlə qızğın ticarət edirdi. Burada istehsal edilən kənd təsərrüfatı və sənətkarlıq məhsulları, xam ipək Tiflis, Dərbənd və Bakı vasitəsilə Rusiyaya və digər ölkələrə ixrac edilirdi. "Şəkiyə Qarabağ vasitəsilə İranın hər yerindən, Azərbaycandan (Cənubi Azərbaycan nəzərdə tutulur – E.Ə.) və Türkiyədən mallar gətirilir və sonra Şəkidən Cara, Dağıstana, Çeçenistana, Kiçik və Böyük Kabardaya yayılır" [9]. XIX əsrin əvvəllərində Şəkinin böyük kapitala malik olan 46 taciri Təbriz və Həştərxan tacirləri ilə sıx ticarət əlaqələri saxlayırdılar [3, v. 3].

Şəkinin iqtisadi həyatında sənətkarlıq daha mühüm rol oynayırdı. Azərbaycanın əksər şəhərlərində olduğu kimi, burada da müəyyən peşədən olan sənətkarlar ayrıca məhəllələrdə yaşayırdılar. Maraqlı burasıdır ki, şəhərdə mövcud olan məhəllələrin xeyli hissəsinin adı orada məskunlaşmış sənətkarların peşə mənsubiyyəti ilə bağlı idi. R.Əfəndiyevin məlumatlarında Şəkidə müxtəlif peşə və sənət sahələri ilə bağlı olan aşağıdakı məhəllələrin adı çəkilir: Şərbaflar, Sabunçular, Xarratlar, Dulusçular, Çanaqçılar, Gümçülər, Dabbaqlar, Bağbanlar [7, s.16]. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində şəhərdə fəaliyyət göstərən 417 sənətkar emalatxanasından 100-ü karvansaralarda, yerdə qalanları isə dalan-bazarlarda və digər yerlərdə yerləşirdilər [1, v. 69].

Şəki xanlığında sənət istehsalının aparıcı sahəsini ipək parça toxuculuğu təşkil edirdi. Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Şəki xanlığında da toxuculuq müəyyən qədər ev sənəti xarakteri daşıyırdı. Mənbələrdə bu barədə xeyli məlumata rast gəlmək mümkündür: "Bütün İranda olduğu kimi, bizim müsəlman vilayətlərində də ipək və pambıq parçalar fabrikdə deyil, daha çox şəhər əhalisi tərəfindən evlərdə istehsal edilir" [12, s.244]. Elə bunun

nəticəsi idi ki, rəsmi məlumatlarda toxucuların sayı haqqında verilən rəqəmlər heç həmişə real vəziyyəti düzgün əks etdirmir.

Şəki xanlığında da parça toxuculuğunda qadın əməyindən istifadə edilməsi kütləvi xarakter daşıyırdı. Şəriət qaydalarına görə qadınların ictimai yerlərdə əmək fəaliyyəti ilə məşğul olmaları məqbul hesab edilmirdi.

S.A. Yegiazarov Azərbaycanda qadın toxucuların əmək və məişət şəraiti haqqında daha ətraflı məlumat verərək yazırdı: "Ev qayğılarından başqa digər məşğuliyyəti olmayan qadınlar bütün sərbəst vaxtlarını yun, pambıq və ipək əyrilməsinə sərf edir, sonra isə parça toxuyurdular. Qadınlar əyiricilik və toxuculuqdan başqa daha incə sənətlərlə - ipək üzərinə naxış salmaq və digər zərif və zəhmət tələb edən işlərlə məşğul olurlar" [13, s.183].

Öyrənilən dövrdə Şəki xanlığında ipək toxuculuğu daha çox əmtəə xarakteri daşıyırdı. İstehsal edilən ipək parçaların əksər hissəsi, xüsusilə, bahalı parçalar həm daxili, həm də xarici bazarların tələbatını ödəmək üçün nəzərdə tutulurdu. Toxuculuq istehsalında sifarişlə məhsul istehsal etmək də geniş yayılmışdı. İstehsal edilən müxtəlif növ parçalar xarici bazarlarda, ilk növbədə isə Rusiya bazarlarında yüksək qiymətləndirilirdi. Burada da istehsal edilmiş ipək parçalara İranda, Osmanlı imperiyasında və Hindistanda da tələbat yüksək idi.

XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində Şəki xanlığında istehsal edilən ipək parçalardan zərbafta, darayı, mov, qanovuz, tafta, kitayi, qələmkar, şemandruz, kəlağayı və s. daha yüksək qiymətləndirilirdi. Burada ipəkdən toxunan bahalı parçalar arasında "zərbaft" adlanan parçaya daha tez-tez təsadüf edilir. Rus mənbələrində bu parçanın adı təhrif olunmuş şəkildə "izorbaf" və "izarbat" formalarında verilir [16, v.124-225]. Əslində, müxtəlif növ bahalı parçalar üçün ümumiləşdirici ad olan "zərbaft" termini iki kökdən – "zər" (qızıl) və "baft" (toxucu) köklərindən ibarət olub qiymətli metallarla parça toxuyan sənətkar mənasını verir [11, s.154; 18, s.173]. Öyrənilən dövrün rus mənşəli mənbələrində zərbaft termininin sinonimi kimi bəzən "parça" termini də işlədilir.

Zərbaft və yaxud parça yüksək keyfiyyətli ipəkdən və zərgərlər tərəfindən hazırlanan qızıl və gümüş simlərdən toxunurdu. Rus çarının Moskva silah palatasında saxlanılan əşyalarının təsvirini vermiş P. Savvaitov zərbaftı "ipəkdən və qızıldan naxışları olan qızılı və yaxud gümüşü parça" adlandırır [18, s.173]. "Təzkirət əl-mülk"ün verdiyi məlumatdan aydın olur ki, orta keyfiyyətli zərbaftın tərkibində qızıl 5%, yüksək keyfiyyətli zərbaftın tərkibində 10%, ən yüksək keyfiyyətli zərbaftın tərkibində isə 15% olurdu [21, s.59].

Qızıl *və* gümüş toxunan ipək parçalar çox bahalı olduğundan onları ya çox varlı adamlar alırdılar, ya da xarici ölkələrə ixrac edilirdi. Onu da göstərmək lazımdır ki, bu parçalar həm topla, həm də ədədlə satılırdılar. 1790-cı ildə Rusiyaya Şəki və Şamaxı xanlıqlarında istehsal edilmiş 69 ədəd və 21 top zərbaft ixrac edilmişdi [15, v. 124 ar,-125].

Öyrənilən dövrdə Şəki xanlığında istehsalı kütləvi xarakter almış ipək parçalardan biri də cecim idi. Çox möhkəm və davamlı parça olan cecimin toxunması ilə, əsasən qadınlar

məşğul olurdular. Etnoqrafik tədqiqatlar göstərir ki, cecimin "həmiyaıı", "obagəzər" və "siya" olmaqla üç növünün istehsalı daha geniş yayılmışdı [4, s.65].

Şəki xanlığı cecim istehsalının əsas mərkəzlərindən hesab edilirdi. Xanlığın Xaçmaz kəndində qadınların əsas məşğuliyyətlərindən birini "müxtəlif rəngli çox möhkəm parçalar-cecim istehsalı təşkil edirdi". Ümumiyyətlə, cecim istehsalında çox müxtəlif rənglərdən-qara, sarı, qırmızı, mavi, yaşıl, sürməyi və s. rənglərdən istifadə edirdilər. Xaçmaz kəndində istehsal edilən cecimin bir ədədi gümüş pulla 5-7 rubla satılırdı və daha çox şalvar tikmək üçün istifadə edilirdi [14, s.383]. Şəki şəhərində isə 25 nəfər toxucu məhz cecim istehsalı üzrə ixtisaslaşmışdılar. Müasirlər Şəki cecimlərini "müxtəlif rəngli zolaqlı və həm də yüksək keyfiyyətli parça" kimi xarakterizə edirdilər [14, s.383].

Azərbaycanın ayrı-ayrı toxuculuq mərkəzlərində toxunan cecim parçalar daha çox yerli tələbatın ödənilməsinə yönəlmişdi. Gecimdən döşək, balınc, mütəkkə üzü, pərdə, süfrə, köynək, şalvar, çuxa, arxalıq və s. tikmək üçün istifadə edilirdi [6, s.286].

Cecim yalnız ipəkdən deyil, həm də ipək və pambığın qarışığından toxunurdu. Qarışıq xammaldan toxunan belə parçalar yerli əhalinin məişətində istifadə edilməklə yanaşı, həm də xarici ölkələrə ixrac edilmək üçün nəzərdə tutulurdu. 1789-1791-ci illərdə Azərbaycandan Rusiya bazarlarına 826 arşın yarımipək cecim parçanın göndərilməsi də bu fikri təsdiq edir [15, v. 247 ar.-248; 16, v. 123 ar.-124; 17, v. 77 ar.-78].

İstehsal olunmuş parçaların və onlardan hazırlanmış paltarların bədii tərtibatına xüsusi əhəmiyyət verilirdi. Qadın və kişi paltarları, eləcə də müxtəlif məişət məmulatları "təkəldüz" və "güləbətin" adlanan bədii tikmə üsulları ilə bəzədilirdi. Bu işlə, əsasən, qadınlar ev şəraitində məşğul olurdular. S.A.Yegiazarov yazırdı ki, Azərbaycan qadınlarının əsas məşğuliyyət sahələrindən birini ipək parçalar üzərinə naxış salmaq təşkil edirdi [13, s.183]. Qadın əməyi ilə bağlı olduğundan bu sənət uzun müddət ev peşəsi səciyyəsi daşımışdır. Lakin müxtəlif tikmə üsulları ilə bəzədilmiş bədii tərtibatlı məmulatlara tələbatın artması tikmə sənətinin də xarakterinə təsir göstərmiş, onun kustar sənət səviyyəsinə yüksəlməsinə səbəb olmuşdu. Bundan sonra sənətin bu sahəsilə, xüsusi emalatxanalarda kişilər məşğul olmağa başladılar.

Sənət istehsalının digər sahələrində olduğu kimi, bədii tikmə sənətində də Şəki aparıcı mövqeyə malik idi. Sənətşünas G. Əliyeva bildirir ki, Şəkidə təkəlduz sənətinin yayılması XVIII əsrin əvvəllərində sərrac ustalarının Dərbənddən buraya köçürülməsi ilə bağlı olmuşdur [4, s.92]. Bu faktın özü müəyyən qədər şübhə doğursa da, XIX əsrin əvvəllərində bu sənətin Şəkidə geniş yayıldığı arxiv sənədləri ilə təsdiq edilir. Şəki xanlığının ləğv edildiyi dövrdə tərtib edilmiş kameral təsvirdə Şəki şəhərində 46 nəfər ustanın "ipək sap və bafta toxumaqla məşğul olduğu" göstərilir [3, v. 8-10, 82-83]. Başqa bir mənbədə qeyd olunur ki, güləbətinlə işlənmiş paltarlar burada son dərəcə dəbdə olduğundan nəinki varlı adamlar, hətta yoxsullar belə üsulla naxışlanmış paltar geyirlər. Elə ordaca göstərilir ki, Şəkinin güləbətinli çuxaları bütün Cənubi Qafqazda şöhrət qazanmışdır və belə çuxaların bir ədədi 6-15 manata satılır [14, s.383].

Bədii tikmə üsulu ilə bəzədilmiş geyim və məişət məmulatlarına tələbatın artması bu sənət sahəsinin xarakterində dəyişiklik yaratmaqla yanaşı, müəyyən əmək bölgüsünün də meydana gəlməsinə səbəb olmuşdu. Bunu XIX əsrin əvvəllərində Şəkidə 22 nəfər yəhər üzü bəzəyən, 16 nəfər başmaq üzü bəzəyən və 50 nəfər büstü üzü bəzəyən bədii tikmə ustalarının fəaliyyət göstərməsi də sübut edir [5, s.45-46].

**Ədəbiyyat**

1. Azərb. DTA, f. 24, siy. 1, iş 72.
2. Azərb. DTA, f. 24, siy. 1, iş 84.
3. Azərb. DTA, f. 24, siy. 1, iş 162.
4. Mustafayev A.N. (1988), Toxuculuq. Azərbaycan etnoqrafiyası. I cild. Bakı, Elm.
5. Nuxa qəzası haqqında tarixi-etnoqrafik materiallar (tərtib edəni Ə.Nəbiyev), Azərb. MEA TİEA, f. 1, siy. 13, iş 5822.
6. Əliyeva G. (1990), Azərbaycanın bədii parça və tikmələri, Bakı, Elm.
7. Mustafayev A.N. (1977), Şirvanın maddi mədəniyyəti, Bakı, Elm.
8. ЛКАК, *т.* IV, док. 95.
9. АКАК, т. VI, ч. I, док. 1081.
10. Броневский С.Б. (1823), Новейшая географическая и историческая известия о Кавказе, ч. I. Москва.
11. Гейдаров М.Х. (1982), Города и городское ремесло Азербайджана XIII-XVII в. Баку, Элм.
12. Григорьев В.Н. (1833), Статистическое описание Нахичеванской провинции. Санкт-Петербург.
13. Егиазаров С.А. (1891), Исследования по истории учреждений в Закавказье, ч. II. Городские цехи. Казань.
14. ОРВЗК, ч. III, Санкт-Петербург, 1836
15. РГАДА, ф. 1261, оп. 6, д. 945.
16. РГАДА, ф. 1261, оп. 6, д. 948.
17. РГАДА, ф. 1261, оп. 6, д. 949.
18. Савваитов П.И. (1865), Описание старинных царских утварей, одежд, оружия, ратных доспехов и конского прибора, извлеченное из рукописей архива, Московской Оружейной палаты с объяснительным указателем. Санкт-Петербург.
19. Серебров А.Г. (1958), Историко-этнографическое описание Дагестана. ИГ и ЭД.
20. Эфендизаде Р. Материалы о цеховом устройстве в городе Нухе в начале XIX в. НА ИИ НАН Азербайджана, инв. 10.
21. Tadhkirat al muluk. A manual of Safavid administration. Persian text in faksimile. Trans. and explayned by V.Minorcki. London. 1943.